UOT:338. 43; 330.341.4:339.13:330.341.44:338.33:334.012
JEL: Q 10; M 13

HƏZİYEV F.Ə.
AMEA-nın İqtisadiyyat İnstitutunun dissertantı

AQRAR SEKTORDA SAHİBKARLIĞIN BAŞLANMASININ MOTİVASİYASI PROBLEMLƏRİNƏ MÜXTƏLİF YANAŞMALAR

Xülasə

Tədqiqatın məqsədi: Aqrar sektorda sahibkarlığın mahiyyəti və onun başlanması üçün əsas motivasiyaların öyrənilməsinə müxtəlif yanaşmaların təsnifləşdirilməsi

Metodologiya:müqayisəli analiz və təsnifləşdirmə

Nəticə: sahibkarlıq haqqında bilik və bacarığın olması və yeni sahibkarlıq subyektlərinə investisiyaların yatırılmasına olan inam yeni yaranan sahibkarlıq subyektlərinin gələcək inkişafına pozitiv təsir göstərir.

Açar sözlər: *aqrar setor, sahibkarlıq, start-up, motivasiya*

GİRİŞ

Adətən aqrar sektor sənaye və xidmət sahələrinə nisbətən daha aşağı texnologiyalı iqtisadi fəaliyyət sahəsi hesab olunurdu. Aqrar sahədə texnoloji nöqteyi-nəzərdən yeni məhsulların, xüsusilə elm tutumlu məhsulların istehsalı əvəzinə daha çox və keyfiyyətli məhsul əldə etmək daha prioritet hesab olunurdu. Lakin son zamanlar dünya təsərrüfat sisteminin və ölkələrarası əlaqələrin genişlənməsi aqrar bazarlara da təsirsiz ötüşməyib. Dünya ölkələri aqrar məhsulların idxal-ixrac əməliyyatlarını genişləndirmək üçün liberallaşma tədbirləri həyata keçirirlər. Bu texnoloji yeniliklərin ölkələrarası hərəkəti ilə yanaşı bilik və bacarıqları, həmçinin aqrar sektorda insan kapitalının da inkişafını stimullaşdırır. Aqrar sektorda insan kapitalının inkişafı və yeni texnologiyaların tətbiqi bu sahədə təşəbbüskarlığı da artırmaqdadır. Artıq aqrar sektorla bu və ya digər formada maraqlı olan bütün aktorlar, xüsusilə siyasilər, alimlər və birbaşa aqrar sektorda fəaliyyət göstərən insanlar bu sektorda sahibkarlığın və biznes təfəkkürünün inkişaf etdirilməsini vacib hesab edirlər. Aqrar sektorda sahibkarlığın inkişafı bütün səviyyələrdə davamlı inkişafın təmin edilməsi üçün vacib amildir. Tədqiqatlar göstərir ki, aqrar sektorda sahibkarlıq ölkədə biznes təfəkkürünün inkişafı ilə yanaşı, həm də iqtisadi inkişaf üçün mühüm şərtdir [1].

Aqrar sektorda sahibkarlığı yalnız torpaq sahəsi üzərində sərəncam vermə hüququ kimi təsvir etmək bu sahədə təşəbbüskarlığın arxa plana keçirilməsi demək olardı. Aqrar sektorda sahibkarlığın mahiyyəti ilə bağlı iqtisadi ədəbiyyatda geniş məzmunlu və birmənalı tərifl ər yoxdur. Müxtəlif müəlliflər aqrar sektorda sahibkarlıq məsələsinə müxtəlif aspektlərdən yanaşırlar. Gündəlik danışıq dilində "sahibkarlıq" biznesə malik olmaqla, özüməşğulluqla, fermer təsərrrüfatına malik olmaqla və s. eyniləşdirilir. İqtisadi ədəbiyyatın müqayisəli təhlili deməyə əsas verir ki, "sahibkarlıq" anlayışı şəxsi maraqlara fokuslanmaqdan xeyli kənara çıxaraq, daha çox təşəbbüskarlıq və qərar qəbulu səviyyəsinə qalxır. Bu anlayışın mahiyyətində müəssisənin fəaliyyəti ilə, maddi və maliyyə resurslarına olan ehtiyacla bağlı sahibkarın bilik və bacarığa malik olması faktı dayanır. Aqrar sahədə digər sahələrdə olduğu kimi, sahibkarın əsas məqsədi mənfəət əldə etməkdir. Buna görə də aqrar sektorda fəaliyyət göstərən sahibkar iqtisadi fəaliyyətin digər sahələrində olduğu kimi həm ictimai inkişafa dəstək, həm də maneələr yarada bilər.

Ədəbiyyata baxış

Aqrar sektorda sahibkarlığın inkişafını qiymətləndirmək üçün onun asılı olduğu determinantları müəyyən etmək vacibdir. Şübhəsiz ki, digər sektorlarda olduğu kimi, aqrar sektorda da sahibkarlıq yeni iş yerlərinin yaradılmasına dəstək verir. Digər tərəfdən, iqtisadiyyatın inkişafı üçün sahibkarlıq innovasiya mənbəyi rolunu oynayır. Sahibkarlıq həm də iqtisadi sistemin inkişafını stimullaşdırır. [2] Bəzi tədqiqatçılar hesab edirlər ki, cəmiyyətin mövcud və gələcək inkişaf səviyyəsi sahibkarlığın inkişaf səviyyəsindən çox asılıdır [3]. Ona görə də sahibkarlığın dəstəklənməsi ilə bağlı hər hansı siyasət və ya proqram həyata keçirilərkən nəzərə alınmalıdır ki, hansı amillər biznesin qurulmasına və inkişafına mane olur. Bu problemin daha aydın başa düşülməsi üçün onun ayrıca götürülmüş iqtisadi fəaliyyət sahəsində, məsələn aqrar sektorda araşdırılması daha doğru olar [4]. Odur ki, biz aqrar

sektorda biznesin başlaması üçün zəruri olan determinantların müəyyən edilməsinə çalışaq. Aqrar sektorda sahibkarlığın inkişafı üçün bəzi problemləri nəzərə almaq lazımdır. Belə ki, a) aqrar sektorda istehsal daha çox bioloji proseslərlə və iqlimlə bağlı olduğundan bu sektorda qeyri-müəyyənlik və risk amilləri daha yüksəkdir; b) aqrar sektorda struktur dəyişiklikləri daha tez-tez baş verir; c) aqrar bazarda qiymət dəyişiklikləri daha tez-tez baş verir; d) aqrar sektorda biznesin başlanması üçün ilkin maliyyə dəstəyinə daha çox ehtiyac duyulur. Belə qeyri-sabit iqtisadi fəaliyyət sahəsində biznesin başlanması üçün zəruri ehtiyatların və biznesə təsir göstərə bilən amillərin nəzərə alınması mühüm əhəmiyyət daşıyır [5]. Bütün bunlarla yanaşı, iqtisadi konyunktura aqrar sektorda da ciddi dəyişikliklər yaradaraq, bazarın tələblərinə uyğun fəaliyyət göstərir. Lakin buna baxmayaraq, aqrar sektorda sahibkarlıq digər iqtisadi fəaliyyət sahələrində olduğundan fərqlənir. Elə ona görə də son zamanlar bu problemin ətrafında iqtisadi debatlar genişlənir. Bəzi müəlliflər aqrar sahədə olan sahibkarlığı daha çox yeni məhsulların istehsalı ilə və ya aqrar biznesdə innovasiyaların tətbiqi ilə əlaqələndirirlər [6]. Qlobal Sahibkarlıq Monitoru (GEM) təşkilatı fərdlərin aqrar sahədə biznes yaratmağ cəhdlərini qiymətləndirməyə imkan verən metodologiya hazırlayıb.

Aqrar sektorda "start-up" biznesin qurulması məsələləri və bu prosesə təsir göstərən amillərin bütün spektrlərinin nəzərə alınması ilə bağlı tədqiqatlar getdikcə çoxalmaqdadır. Lakin əksər tədqiqatlarda bu və ya digər amillərin nəzərə alınmaması ümumi mənzərəni xeyli dəyişdirir. Məsələn, Yasen və digərləri [7] tərəfindən aparılan tədqiqatlarda Pakistanın aqrar sektorunda "start-up" biznesin və sahibkarlığın inkişafı problemləri araşdırılsa da demoqrafik problemlərin bu prosesə təsirləri nəzərə alınmayıb. Bəzi tədqiqatlarda, məsələn, Afandi və başqaları [8], Light və Dana [9] tərəfindən aparılan tədqiqatlarda aqrar sahibkarlığın məqsəd və vəzifələrinin də sahibkarın fərqli xüsusiyyətlərindən asılılığı tədqiq edilib.

Qeyd edək ki, aqrar sahədə "start-up" biznesin problemləri ilə artıq oturuşmuş biznesin problemləri fərqləndirilməlidir. Bizi bu tədqiqat zamanı "start-up" biznesin problemləri maraqlandırdığından biz yalnız bu sahədə sahibkarlığın əsas determinantlarını və aqrar sahədə "start-up" biznesin və ya sahibkarlığın yaratdığı riskləri tədqiq edəcəyik. Həm də nəzərə almaq lazımdır ki, bizim tədqiqatda yalnız fərdlərin aqrar sektorda "start-up" biznesi tədqiqat obyektidir. Bu prosesə demoqrafik amillərin, insan kapitalının və sosial proseslərlə bağlı amillərin də təsiri mütləq nəzərə alınmalıdır. Lakin bu təsirlərdən heç biri, o cümlədən demoqrafik amillər (məsələn, yaş həddi, cinsi fərqlər, gəlirlərin həcmi və s.) xüsusi üstünlüyə malik deyil və aqrar sektorda sahibkarlığın inkişafında hər birinin mühüm əhəmiyyəti vardır. Digər amillərin, məsələn, fərdin biznes qurmaq üçün motivi, sosial vəziyyəti və s. amillər də aqrar sektorda biznesin yaradılmasında mühüm rol oynaya bilər. Bütün hallarda aqrar sektorda biznesin qurulmasını təkcə mənfəətlə əlaqələndirmək mümkün deyil, çünki bu sektorda mənfəətin əldə edilməsi digər iqtisadi fəaliyyət sahələrindən ciddi fərqlənir. Dünyanın ən inkişaf etmiş ölkələrində aqrar sektor dövlət tərəfindən subsidiyaların dəstəyi ilə fəaliyyət göstərir. Ona görə də bu sektorda biznesin qurulması fərdin motivi ilə yanaşı digər amillərdən asılı olur. Beləliklə, aqrar sektorda sahibkarlıq fəaliyyətinin başlanmasına, fərdlər tərəfindən qərarın verilməsinə təsir göstərən amillərin, xüsusilə sosial amillərin öyrənilməsi maraq kəsb edir.

Qeyd edək ki, əksər ölkələrdə aqrar sektorda "start-up" fəaliyyət dövlət tərəfindən bu və ya digər formada dəstəklənir. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin 2016-ci ilin 6 dekabr tarixli Fərmanı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə aqrar sektorda sahibkarlıq məsələlərinə xüsusi önəm verilir.

Yol Xəritəsinin hədəf indikatorları arasında aqrar sektorda sahibkarlığın genişləndirilməsi xüsusi vurğulanır. Qeyd edilir ki, 2020-ci ilə kimi hər regionda uyğun məhsulların dəyər zənciri üzrə ümumilikdə 25 kiçik və orta sahibkarlıq subyekti yaradılacaqdır. Əlbəttə, belə sahibkarlıq subyektləri fərdlər tərəfindən yaradılan "start-up" biznesindən daha geniş miqyaslı ola bilər. Digər tərəfdən, yaradılması nəzərdə tutulan sahibkarlıq subyektləri daha çox dəyər zəncirləri ilə əlaqəli olacaqlar. Aqrar sektorda yaradılan "start-up"-lar isə ayrı-ayrı məhsulların istehsalı ilə müstəqil və ya birgə məşğul ola bilərlər və onların dəyər zəncirinə qoşulması xüsusi şərt və ya hədəf olmaya bilər. Lakin Strateji Yol Xəritəsində sahibkarlıq subyektlərinin yaradılmasının

hədəf kimi qoyulması aqrar sektorda sahibkarlığın inkişaf etdirilməsinin mühüm əhəmiyyəti olmasından xəbər verir. Azərbaycanda sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına dövlətin xüsusi önəm verməsi Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi sənədində də öz əksini tapıb. Ölkədə istehlak mallarının istehsalında kiçik və orta sahibkarlığın rolunun gücləndirilməsi mahiyyət etibarı ilə ölkədə dövlət sahibkarlığı ilə xüsusi sahibkarlıq arasındakı nisbətin xüsusi sahibkarlığın xeyrinə dəyişdirilməsini nəzərdə tutur. Ölkənin iqtisadi inkişafında və istehlak mallarının istehsalında idxaldan asılılığın azaldılması və bəzi mühüm mallar üzrə tamamilə aradan qaldırılması strateji xətt kimi inkişaf etdirilir.

Aqrar sektorda sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı ən mühüm addım hələ müstəqilliyin ilk illərində Ümummilli Lider H. Əliyev tərəfindən atılmışdı. Azərbaycanda həyata keçirilən aqrar islahatlar keçmiş sovet respublikaları ilə müqayisədə ən sürətli və geniş miqyaslı olmuşdu. Kənd təsərrüfatına yararlı torpaq sahələrinin kənd əhalisinə paylanması və onlara fəaliyyət üçün müstəqilliyin verilməsi kənd təsərrüfatı sahəsində mühüm liberallaşma siyasəti idi. Sonrakı illərdə regionların inkişafı ilə bağlı müxtəlif dövlət proqramlarının qəbul edilməsi və aqrar sahədə islahatların davam etdirilməsi aqrar sektorda sahibkarlığın inkişafına ciddi təkan verdi. Aqrar sektorda sahibkarlıq fəaliyyətinin inkişafı üçün vergi güzəştlərinin tətbiqi, kənd təsərrüfatı istehsalçıları üçün subsidiyaların və digər dövlət yardımlarının tətbiqi aqrar sektorda sahibkarlığın inkişafı üçün mühüm zəmin yaratmışdır. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanına uyğun olaraq Dövlət Gömrük Komitəsi tərəfindən "Yaşıl dəhliz" və digər buraxılış sistemlərinin tətbiqi ilə əlaqədar müvafiq infrastruktur yaradılmışdır. 2016-cı il 1 avqust tarixindən etibarən sahibkarlar "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə etmək imkanı qazanmışlar. Azərbaycan Respublikası Prezidentinin "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərinin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" 2016-cı il 4 avqust tarixli 2257 nömrəli Sərəncamı ilə vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılmasının təmin edilməsi istiqamətində mühüm addım atılmışdır.

Azərbaycan Respublikasında aqrar sektorda sahibkarlıq fəaliyyətini genişləndirmək, kənd regionlarında biznes və investisiya mühitinin əlverişliliyini və aqrar sektorda məhsul istehsalının rəqabət qabiliyyətini daha da artırmaq üçün müxtəlif tədbirlər həyata keçirilib. Son illərdə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli Qanununa əsasən 2015-ci il 1 noyabr tarixindən sahibkarlıq sahəsində vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına böyük təhlükə yaradan hallar üzrə yoxlamalar istisna olmaqla, bütün digər yoxlamalar 2 il müddətinə dayandırılmışdır.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına görə, Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi artımda payı yüksək deyil. 2015-ci ildə qeyri-neft sektorunda yaradılan əlavə dəyərdə kiçik və orta sahibkarlığın payı cəmi 5.8% olub. İqtisadiyyata yönəldilən cəmi investisiyaların həcmində isə kiçik sahibkarlıq subyektlərinin payı 9,2% təşkil etmişdir. Lakin iqtisadiyyatda dövlət sahibkarlığı ilə özəl sahibkarlıq arasındakı nisbətdə özəl sahibkarlığın yüksək olmasına baxmayaraq, kiçik sahibkarlığın payı yüksək deyil. Aqrar sektorda fəaliyyət göstərən sahibkarlıq subyektləri əsasən kiçik və orta ölçüdə olduğundan onların iqtisadi inkişafda rolunun az olması təəssüf doğurur. Belə ki, əlavə dəyərdə payı cəmi 5.8% olan kiçik və orta sahibkarlıq subyektlərinin cəmi 10.7%-i aqrar yönlüdür. Yəni bu tip sahibkarlıq subyektləri yaradılan cəmi əlavə dəyərdə 0,58%-lik paya malikdirlər. Aqrar sektorda geniş potensialı olan Azərbaycan üçün bu rəqəm olduqca kiçikdir.

Aqrar sektorda sahibkarlıq subyektlərində yaradılan əlavə dəyərin cəmi əlavə dəyərdə kiçik paya malik olmasına baxmayaraq, bu sahənin inkişafına dövlət tərəfindən ayrılan kreditlərin həcmi mühüm paya malikdir. Belə ki, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu (SKMF) sahibkarlara güzəştli kreditlərin, o cümlədən dövlət büdcəsindən əlverişli şərtlərlə kreditlərin ayrılmasını təmin edir. Bu kreditlərin əsas hissəsi (təqribən 97%) kiçik kreditlərdir. 2016-cı ilə qədər SKMF tərəfindən hər birinə orta hesabla 47000 ABŞ dolları həcmində olmaqla, 12,5 min müəssisəyə kredit verilmişdir.

Bu kreditlərin böyük hissəsi kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsinə ayrılmışdır. "Azərbaycan İnvestisiya Şirkəti", Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti, Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu da kiçik və orta sahibkarlığa müxtəlif mahiyyətli yardımlar edirlər.

Azərbaycanda aqrar sektorda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə maliyyə yardımlarının, xüsusilə kreditlərin verilməsindəki problemlər bu sahədə maliyyə riskləri ilə bağlıdır. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsində maliyyə mənbələrinin, xüsusilə bankların kiçik və orta sahibkarlıq subyektlərinə kreditin verilməsindəki çətinliklərin geniş araşdırılıb. Bu çətinliklər bütün kiçik və orta sahibkarlıq subyektlərinə, o cümlədən aqrar sektordakı sahibkarlıq subyektlərinə də aiddir. Aqrar sektorda sahibkarlıq subyektlərinin sayının az olması və bu sahədə inkişaf sürətinin yavaşlığı, həmçinin aqrar sektorda risk səviyyəsinin yüksək olması maliyyə institutlarının onlarla əməkdaşlığına çətinliklər yaradır.

İqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar sahədə sahibkarlığa proses kimi yanaşılmalıdır. Digər tərəfdən, aqrar sahibkarlıq həm də müəyyən sosial səviyyədir. Sahibkar öz fəaliyyəti zamanı daxili və xarici mühitlə üz-üzə dayanır və çox hallarda nəzərdə tutulan gözləntilər yerinə yetirilmir. Aqrar sahədə sahibkarlığa proses kimi yanaşaraq, bəzi tədqiqatçılar bu prosesin müxtəlif səviyyələrini tədqiq edirlər [10]. Əksər tədqiqatçılar üçün bu prosesin ilkin mərhələləri, xüsusilə fərdlərin sahibkarlığa meyllənməsindəki motivasiyaların mahiyyətinin və sosial kapital amillərinin öyrənilməsi daha maraqlıdır. Azərbaycan üçün bu prosesin əks meyli, yəni aqrar sektorda sahibkarlıq subyektlərindən əl çəkərək, daha çox fərdi ev təsərrüfatları çərçivəsində fəaliyyətə üstünlüyün verilməsindəki motivasiyalar maraqlıdır. Aqrar sahədə yeni biznesin yaradılmasında sosial kapitalın rolunun öyrənilməsinə həsr edilən tədqiqatlara iqtisadi ədəbiyyatda tez-tez rast gəlinir.

Aqrar sektorda sahibkarlıq fəaliyyətinin inkişafı bir çox determinantlardan asılıdır. Biz fərz edəcəyik ki, belə determinantlar arasında a) sahibkarlıq imkanlarının qavranılması; b) aqrar sahədə sahibkarlığın uğurlu olmasına inamın azlığı; c) özünə inam; d) mövcud sahibkarlar və onların fəaliyyəti haqqında informasiyalara malik olma; e) biznes havadarlarının olması; f) demoqrafik vəziyyət, o cümlədən yaş, cins, təhsil səviyyəsi mühüm rol oynayır.

Sahibkarlıq imkanlarının qavranılması Shane və Venkataraman tərəfindən aparılan tədqiqatlarda sahibkarlıq fəaliyyətinin əsas göstəricilərindən hesab edilir [11]. Aqrar sektorda imkanların düzgün qavranılması yeni biznesin yaradılmasına motiv olaraq təsir göstərir. Əgər insanlar, xüsusilə regionda yaşayah əhali arasında müəyyən sahədə bilik və bacarığı olan gənclər hiss edirlərsə ki, aqrar sektorda biznesi inkişaf etdirmək üçün hər hansı imkanlar var, onda onlar bu imkanları ayrı-ayrılıqda müqayisə edərək öz imkanlarına uyğun sahədə yeni biznes qurmağa cəhd edəcəklər. İqtisadi ədəbiyyatda sahibkarlıq imkanlarının, o cümlədən aqrar sektorda sahibkarlıq imkanlarının düzgün qiymətləndirilməsinin sahibkarlıq fəaliyyətinə pozitiv təsir etməsinə həsr edilən çoxlu sayda tədqiqatlar mövcuddur.

Aqrar sektorda sahibkarlığın inkişafına təsir göstərən determinantlardan biri də bu sektorda ***biznes qurmağın riski*** ilə bağlıdır. Bu məsələlər müxtəlif iqtisadçılar tərəfindən, o cümlədən Koellinger və digərləri [12], Noguera və digərləri [13] tərəfindən tədqiq edilib. Bu tədqiqatlar da sübut edir ki, aqrar sahədə "start-up" biznesin qurulması müxtəlif risklərlə bağlı olduğundan əhali arasında belə tip sahibkarlıq o qədər də populyar deyil və risklərin artması sahibkarlıq subyektlərinin yaranmasına, yeni biznesin formalaşmasına mənfi təsir edir.

Aqrar sektorda sahibkarlığın inkişafına təsir göstərən amillərdən biri də ***"özünə inam"*** hesab oluna bilər. Bu, sahibkarlığa və yeni biznesə başlamaq istəyən fərdin öz bilik və bacarığına olan inamını əks etdirir. Belə inamın olması fərdə imkan verir ki, o, biznesin qurulmasına və nəzərdə tutulan məqsədə nail olmaq üçün bilik və bacarığını səfərbər edə bilsin. Qeyd edək ki, Azərbaycan dilində "sahibkarlıq" anlayışının mahiyyətində təşəbbüskarlıq çalarları hiss edilmir. İngilis dilində "entrepreneurship" rus dilində "предпринимательство» anlayışlarının mahiyyətində isə belə təşəbbüskarlıq elementləri var. Ona görə də "sahibkarlıq" deyəndə biz daha çox onun ingilis dili və ya rus dilindəki mahiyyətinə yaxın

mahiyyəti nəzərdə tuturuq. Yəni bu fəaliyyətlə məşğul olan fərd nəinki istehsal amillərinə sahiblik edir, həm də qurulan iqtisadi münasibətlərdə təşəbbüskarlıq edir. Aqrar sektorda sahibkarlığın inkişafı üçün mühüm determinantlardan olan "özünə inam" determinantı da mahiyyətcə sahibkarlığın "daxilində olan" təşəbbüskarlıqla bağlıdır. Təşəbbüskarlıq bacarığı əsasən özünə inamı olan insanlarda formalaşır. Bu məsələlər Roy və digərləri [14], Langouitz and Minniti və s. tədqiqatçılar tərəfindən araşdırılıb. Əksər tədqiqatlar sübut edir ki, fərdlərin özünə inam hissi aqrar sahədə sahibkarlığın genişlənməsinə və inkişafına pozitiv təsir göstərir.

Yuxarıda qeyd etdiyimiz hər üç amil fərdin davranışı ilə daha çox bağlıdır və davranışlar vasitəsilə sahibkarlığın inkişafına və yeni biznesin yaradılmasına təsir göstərir. Fərdin davranışı ilə onun cəmiyyətlə bağlı münasibətindən doğan amillər də vardır. ***Sosial kapital*** hesab oluna bilən bu amillər digər sahibkarlarla bağlı informasiyalara malik olmağı, iqtisadi fəaliyyət sahəsində fəaliyyət göstərən əvvəlki sahibkarlar haqqında dolğun məlumatın olmasını və sahibkarlıq subyektlərinin yaranacağı regionlarda demoqrafik vəziyyətin nəzərə alınmasını zəruri edir. Neira və digərləri, Davidsson and Honig öz tədqiqatlarında göstərirlər ki, sosial kapital amilləri sahibkarlıqla bağlı yeni biznesin yaradılmasında və gələcək inkişafında mühüm əhəmiyyətə malikdir. Sosial kapital nəzəriyyəsi sosial şəbəkə nəzəriyyəsi ilə bağlıdır. Hər iki nəzəriyyə fərdlərin öz sosial şəbəkə üzvlərindən bəhrələnmək bacarığını ehtiva edir.

Aqrar sektorda sahibkarlığın yaranmasına və inkişafına təsir göstərən amillərdən biri də ***mövcud sahibkarlıq subyektləri haqqında məlumatlılığın olmasıdır***. Belə ki, belə məlumatlılıq yeni sahibkarlar üçün hansı çətinliklərin olması haqqında əvvəlcədən məlumatlılıq imkanı yaradır. Yeni sahibkar mövcud sahibkarlardan bilik və bacarıqların əldə edilməsi imkanı qazanır. Digər tərəfdən, yeni sahibkarın mövcud sahibkarlar haqqında məlumatlı olması onların birgə fəaliyyət göstərəcəkləri bazarda konyunkturanın öyrənilməsinə və adekvat addımlar atılmasına şərait yaradır. Mövcud sahibkarlar haqqında məlumatlılığın olması determinantının aqrar sektorda "start-up" subyektlərinin yaradılmasına və inkişafına təsirləri ilə bağlı aparılan tədqiqatların analizi deməyə əsas verir ki, bu iki kəmiyyət arasında əlaqə pozitivdir.

Aqrar sektorda sahibkarlığın inkişafına təsir göstərən amillərdən biri də demoqrafik amildir. Bura sahibkarlığa meyil edən fərdin yaş həddi, cinsi, gəlirlərinin həcmi, təhsil səviyyəsi , sahibkarlıq haqqında bilik səviyyəsi və sair təsir göstərir. Məsələn, çoxlu sayda tədqiqatlar var ki, aqrar sektorda sahibkarlığın inkişafı ilə yaş həddi arasında neqativ əlaqənin olmasını sübut edir. Aqrar sektorda qadın sahibkarların sayı da kişi sahibkarlarla müqayisədə xeyli azdır, baxmayaraq ki, aqrar sektorda işləyən qadınların sayı kişilərə nisbətən çoxdur. Xüsusilə, inkişaf etməkdə olan ölkələrdə inkişaf etmiş ölkələrlə müqayisədə qadın sahibkarlığı zəifdir. Yaş məhdudiyyəti də sahibkarlığın inkişafında mühüm rol oynayır. Tədqiqatlar göstərir ki, gənclər arasında aqrar sahibkarlığa meyil 30 yaş və daha yaşlı adamlarla müqayisədə azdır.

Aqrar sektorda sahibkarlığın inkişafına təsir göstərən və yuxarıda qeyd edilən amillərlə bağlı geniş məlumatlar Qlobal Sahibkarlıq Monitoru (The Global Entrepreneurship Monitor-GEM) beynəlxalq təşkilatı tərəfindən tədqiq edilir. Biz, metodoloji olaraq, bu məlumatlardan istifadə edərək, Azərbaycanda aqrar sektorda sahibkarlıq subyektlərinin yaradılmasına və inkişafına təsir göstərən hər bir amildən asılılığı müəyyən edə bilərik.

NƏTİCƏ

Aqrar sektorda "start-up" biznesin inkişafında investisiyaların qoyulmasına sahibkarlıq haqqında bilik və bacarıqların mövcudluğu ciddi təsir göstərir. Bu sahədə aparılan tədqiqatlar da sübut edir ki, sahibkarlıq haqqında bilik və bacarığın olması və yeni sahibkarlıq subyektlərinə investisiyaların yatırılmasına olan inam yeni yaranan sahibkarlıq subyektlərinin gələcək inkişafına pozitiv təsir göstərir.

ƏDƏBİYYAT SİYAHISI

1. Lans T, Verstegen J, Mulder M. Analysing, pursuing and networking: a validated three-factor framework for entrepreneurial competence from a small business perspective. Int Small Bus J. 2011;29(6):695-713.

2. Reynolds, P. D., Bygrave, W. D., Autio, E., & Arenius, P. (2004). GEM 2003 global report. Babson College.

3. Sieger, P., Fueglistaller, U., & Zellweger, T. (2016). Student entrepreneurship 2016: Insights from 50 countries.

4. Arafat, M. Y., & Saleem, I. (2017a). Examining start-up intention of Indians through cognitive

approach: A study using GEM data. Journal of Global Entrepreneurship Research, 7(1), 13. https://doi.org/10.1186/s40497-017-0073-3.

5. Deakins, D., Bensemann, J., & Battisti, M. (2016). Entrepreneurial skill and regulation: Evidence from primary sector rural entrepreneurs. International Journal of Entrepreneurial Behavior & Research, 22(2), 234–259.

6. Pindado, E., & Sánchez, M. (2017). Researching the entrepreneurial behaviour of new and existing ventures in European agriculture. Small Business Economics, 49(2), 421–444. https://doi.org/10.1007/s11187-017- 9837-y.

7. Yaseen, A., Saleem, M. A., Zahra, S., & Israr, M. (2018). Precursory effects on entrepreneurial behaviour in the agri-food industry. Journal of Entrepreneurship in Emerging Economies, 10(1), 2–22.

8. Afandi, E., Kermani, M., & Mammadov, F. (2017). Social capital and entrepreneurial process. International Entrepreneurship and Management Journal, 13(3), 685–716. https://doi.org/10.1007/s11365-016-0421-8.

9. Light, I., & Dana, L. P. (2013). Boundaries of social Capital in Entrepreneurship. Entrepreneurship: Theory and Practice, 37(3), 603–624. https://doi.org/10.1111/etap.12016.

10. Welter, F. (2011). Contextualizing entrepreneurship—Conceptual challenges and ways forward. Entrepreneurship: Theory and Practice, 35(1), 165–184. https://doi.org/10.1111/j.1540-6520.2010.00427.x.

11. Shane, S., & Venkataraman, S. (2000). The promise of entrepreneurship as a field of research. Academy of Management Review, 25(1), 217–226.

12. Koellinger, P., Minniti, M., & Schade, C. (2013). Gender differences in entrepreneurial propensity. Oxford Bulletin of Economics and Statistics, 75(2), 213–234.

13. Noguera, M., Alvarez, C., & Urbano, D. (2013). Socio-cultural factors and female entrepreneurship. International Entrepreneurship and Management Journal, 9(2), 183–197.

14. Roy, R., Akhtar, F., & Das, N. (2017). Entrepreneurial intention among science & technology students in India: Extending the theory of planned behavior. International Entrepreneurship and Management Journal, 1–29.

Газиев Ф.А.
Диссертант НАНА Института Экономики

Разные подходы к проблемам мотивации для развития предпринимательства в аграрном секторе

Резюме

Цель исследования: суть предпринимательства в аграрном секторе и классификация разных подходов к изучению главных мотиваций для развития аграрного сектора.

Методология: сравнительный анализ и классификация.

Результаты исследования: иметь знания и умения в области предпринимательства и вера в инвестирование начинающих предпринимателей имеет позитивное влияние в будущее развитие начинающих субъектов предпринимательской деятельности.

Ключевые слова: *аграрный сектор, предпринимательство, стартап, мотивация.*

Haziyev F.A
Candidate for a degree of Institute of Economics, ANAS

Different approaches to the problems of entrepreneurship motivation in the agricultural sector

Resume

Purpose of the research: classification of various approaches to the study of the essence of entrepreneurship in the agricultural sector and the main reasons for its launch

Methodology: comparative analysis and classification

Conclusion: Knowledge and skills of entrepreneurship, as well as confidence in investing in new entrepreneurship, have a positive impact on the future development of new businesses.

Keywords: *agrarian structure, entrepreneurship, startup, motivation.*

Daxil olub: 22.06.2018
Rəy verib: i.ü.f.d. *İbrahimov Ş.M*